

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 65 (21.726)

7 aprel 2017-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 6-da Rusiya Federasiyasının Stavropol vilayətinin qubernatoru Vladimir Vladimirovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Azərbaycan ilə Rusiya arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olduğu bildirilib, ölkəmizin Rusiyanın ayrı-ayrı regionları ilə əməkdaşlığının önəmi vurğulanıb, Azərbaycanın Stavropol vilayəti üçün ticarət və iqtisadi əməkdaşlıq baxımından ən vacib tərəfdaş ölkə olduğu qeyd edilib.

Dövlətimizin başçısı Rusiya Federasiyasının Stavropol vilayətinin qubernatoru Vladimir Vladimirovun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərindən və XVI Beynəlxalq Turizm və Səyahətlər Sərgisində iştirakından məmnunluğunu ifadə edib.

* * *

Aprelin 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakı Ekspo Mərkəzində "AITF-2017" XVI Azərbaycan Beynəlxalq turizm və səyahətlər və "HOREX Caucasus-2017" XI Qafqaz Beynəlxalq mehmanxana, restoran və supermarketlər üçün avadanlıq və ləvazimatlar sərgiləri ilə tanış olublar.

## Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının şura iclası keçirilib

*İclasda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının martın 16-da keçirilmiş iclasında qarşıya qoyulan vəzifələr və Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatının bu ilin birinci rübündə gördüyü işlər müzakirə olunub.*

Tədbirdə təşkilatın sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayevin məruzəsi dinlənilib.

Bildirilib ki, Yeni Azərbaycan Partiyası ulu öndərimiz Heydər Əliyevin ətrafında birləşən, sabitlik və inkişaf bəxş edən, ölkəni parçalamaq istəyənlərə qarşı mübarizə aparan Azərbaycan xalqının arzusu və tələbi ilə təsis olunub. Ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə partiya böyük inkişaf yolu keçib, üzvlərinin sayı xeyli artıb.

Vurğulanıb ki, bu il mart ayının 16-da keçirilən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Sədri cənab Vasif Talıbov partiyanın yarandığı gündən indiyədək keçdiyi şərəfli yolu yüksək qiymətləndirib.



Qeyd olunub ki, Yeni Azərbaycan Partiyasının gücü onun ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən ideyalarının uzun bir dövrə və tarixi proseslərə hesablanmasındadır. Məhz bu amili əsas götürərək ümummilli liderimiz deyirdi ki, Yeni Azərbaycan Partiyası Azərbaycanın dününinin, bu gününün və gələcəyinin partiyasıdır. Partiyamızın dünəni quruculuq, bu günü isə yaradıcılıq tarixidir. Hər bir partiya üzvü əməyi və fəaliyyəti ilə gedən müsbət proseslərdə iştirak edib, ona öz töhfəsini verib, ölkəmiz, onunla birlikdə partiyamız, eləcə də onun Naxçıvan Muxtar Respublika Təşkilatı böyük inkişaf yolu keçib. Bu gün Yeni Azərbaycan Partiyasının üzvləri muxtar respublikanın siyasi fəal əhalisinin 18 faizini təşkil edir ki, bu rəqəm də partiyanın yarandığı ilk dövrdəkindən 47 dəfə çoxdur. Partiya sıraları təkcə kəmiyyət yox, həm də keyfiyyət baxımından genişlənib, bu gün təşkilatın sıralarında ziyalılar və gənclər çoxluq təşkil edir.

Məruzəçi Siyasi Şuranın iclasında verilmiş tapşırıqlara uyğun olaraq qeyd edib ki, rayon təşkilatı gənclərlə işə bundan sonra da üstünlük verməli, vətənpərvər gənclər partiyaya üzv qəbul edilməli, onların sosial şəbəkələrdə fəallığı artırılmalı, Qadınlar Şurasının fəaliyyətinin yüksəldilməsinə nail olunmalıdır. Partiyanın əsas vəzifələrindən biri də kadr siyasətidir və bu sahə yenə də diqqətdə saxlanılmalı, partiya üzvləri muxtar respublikanın ictimai-siyasi həyatında fəal iştirak etməlidirlər.

İclasda qeyd olunub ki, hazırda partiyanın Şərur Rayon Təşkilatının 10 min 355 nəfər üzvü 82 ilk təşkilatda birləşib. Partiya üzvlərinin 3 mindən çoxunu qadınlar, 312 nəfərini gənclər təşkil edir. İlin ilk üç ayı ərzində partiya sıralarına qəbul olunan 22 nəfər gəncin 10-u qadınlardır. Bundan sonra da varislik təmin edilməli, partiya üzvləri ölkəmizin, o cümlədən muxtar respublikanın siyasi həyatında fəal iştirak etməlidirlər.

Partiya üzvlərinin qəbulunun daim diqqətdə saxlanıldığını nəzərə çatdıran Əmir Babayev vurğulayıb ki, məqsəd gənclər arasında ideya-siyasi işi gücləndirməklə nümunəvi və bacarıqlı gənclərin partiya sıralarına daha aktiv cəlbinə nail olmaqdır. İlk partiya təşkilatlarının fəaliyyəti daim diqqətdə saxlanılır, bu məqsədlə təşkilatın şura və idarə heyəti üzvləri yerlərdə olur, ilk partiya təşkilatlarının sədrləri, partiya fəalları ilə görüşür, söhbətlər aparırlar. Rayonda tikilən kənd mərkəzlərində partiyanın ərazi ilk təşkilatları üçün hər cür şəraiti olan iş otaqlarının ayrılması bu təşkilatların aktiv fəaliyyətinə geniş imkanlar yaradır.

Məruzəçi qeyd edib ki, hər bir partiya üzvü bundan sonra fəaliyyətini Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Siyasi Şurasının iclasında qarşıya qoyulmuş vəzifələrə uyğun, partiya işinin daha da yaxşılaşdırılması istiqamətində qurmalı, rayonumuzun ictimai-siyasi həyatında partiya üzvlərinin fəallığı daha da artmalıdır.

Müzakirələrdə "Kapital Bank" ASC-nin Şərur rayon filialının, Püsyan və Düdəngə kəndlərindəki ərazi ilk partiya təşkilatlarının sədrləri Fazil Mehdiyev, Tacir Rəcəbov və Həcər Əsgərova çıxış ediblər.

**Elman MƏMMƏDOV**

## Əhalinin sosial təminatı diqqət mərkəzindədir

***Naxçıvan Muxtar Respublikasında işaxtaranların məşğulluğunun təmin olunması, peşə hazırlığı, əməyin təşkili və mühafizəsi, aztəminatlı ailələrin, ahıl və sağlamlıq imkanları məhdud şəxslərin sosial təminatı və reabilitasiyası ilə bağlı ardıcıl tədbirlər görülür.***

Cari ilin ötən ayında aktiv məşğulluq tədbirləri davam etdirilmiş, 260 işaxtaran vətəndaş məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə göndərilmiş, 5 nəfər xidmət mərkəzlərində müvafiq işlə təmin olunmuş, 12 nəfər ixtisasartırma kursuna cəlb edilmişdir. İşlə təmin edilənlərdən 1-i hərbi xidmətdən tərxis olunan gənc, 7-si məhdud fiziki imkanlı, 9-u isə aztəminatlı ailələrin əmək qabiliyyətli üzvləridir. Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq müxtəlif peşələr üzrə kurslar təşkil olunmuşdur. "Dayə" peşəsi üzrə kursu 17, "Qazanxana maşinisti" peşəsi üzrə kursu 21 nəfər bitirmişdir. Hazırda "Bərbər-manikürçü" və "Bərbər" peşələri üzrə kurslar davam etdirilir. Qeyri-formal məşğulluğun qarşısının alınması, işə götürülən şəxslərlə əmək müqaviləsinin bağlanması, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsi ilə bağlı 32 obyektdə nəzarət tədbirləri aparılmışdır.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə və təhsilə inteqrasiyası diqqət mərkəzində saxlanılır. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan uşaqların müasir informasiya texnologiyalarından istifadə sahəsində biliklərinin artırılması üzrə məşğələlərin təşkili, müxtəlif sosial xidmətlərin göstərilməsi davam etdirilmişdir. Reabilitasiya təlimlərinə 114 uşaq cəlb olunmuşdur. Tədrisə cəlb olunan hərəkət və eşitmə qabiliyyəti məhdud uşaqlar üçün distant dərslərin keçilməsi davam etdirilmişdir. Müvafiq dövrdə Şahbuz rayonunun Sələsüz kəndində yaşayan sağlamlıq imkanları məhdud 1 uşaq distant təhsilə cəlb edilmiş, "Könül işığı" brayl jurnalının növbəti nömrəsi audiokitabxananın kataloquna daxil edilmişdir. Tənha yaşayan və başqasının yardımına ehtiyacı olan 246 ahıl və fiziki imkanları məhdud şəxslərə evlərində, həmçinin 14 nəfərə Ahıllar Evində stasionar sosial xidmət göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Paralimpiya Federasiyasının təşkilatçılığı ilə 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş tədbir və sağlamlıq imkanları məhdud uşaqların iştirak etdiyi boccia idman növü üzrə yarış keçirilmişdir. Yarışda sağlamlıq imkanları məhdud 12 uşaq 2 yaş qrupu üzrə mübarizə aparmışdır. Ahıllar Evində isə 8 Mart – Beynəlxalq Qadınlar Günü münasibətilə tədbir keçirilmiş, qadın sakinlərə bayram hədiyyələri təqdim edilmişdir. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin təşkilatçılığı ilə Babək rayonunun Hacıvar və Sirab kəndlərində yaşayan iki aztəminatlı ailənin üzvləri tibbi müayinədən keçirilərək onlara ərzaq payı və geyim dəstləri verilmişdir. Novruz bayramı münasibətilə də Naxçıvan şəhərində və muxtar respublikanın rayon mərkəzlərində sağlamlıq imkanları məhdud şəxslərlə görüşlər keçirilmişdir.

Martın 16-da Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində sağlamlıq imkanları məhdud 30 uşağın iştirakı ilə səməni müsabiqəsi və bayram şənliyi təşkil olunmuşdur. Tədbirdə Naxçıvan Dövlət Uşaq Teatrının sağlamlıq imkanları məhdud uşaqlarla birlikdə hazırladığı tamaşadan səhnəciklər göstərilib. Muxtar respublikada ötən ay Ümumdünya Daun Sindromlu İnsanlar Günü də qeyd olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Poqramı"nın müəyyənləşdirdiyi vəzifələr icra olunur. Dövlət proqramının icrasına uyğun olaraq martın 31-də Ordubad şəhər 3 nömrəli tam orta məktəbdə maarifləndirici görüş keçirilib. Keçirilən tədbirdə Ordubad Şəhər M.Füzuli adına tam orta internat məktəbində və Ordubad rayonu üzrə ümumtəhsil məktəblərində təhsil alan sağlamlıq imkanları məhdud uşaqların valideynləri, bu kateqoriyadan olan uşaqlara fənləri tədris edən müəllimlər və məktəb psixoloqları iştirak ediblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*"Badamlı" suyuna artan tələbatı ödəmək üçün Şahbuz rayonunun Badamlı qəsəbəsində köhnə zavodun yerində daha bir zavodun inşasına başlanılıb.*

## Şahbuzda daha bir müasir zavod tikilir



Bu ilin avqust-sentyabr aylarında istifadəyə verilməsi nəzərdə tutulan zavod əvvəlkilərdən daha böyük və yüksək texniki imkanlara malik olacaq. Zavodun suyun mənbəyində qurulması məhsul istehsalının artmasına və onlarla qəsəbə sakini üçün yeni iş yerinin açılmasına zəmin yaradacaq.

Xatırladaq ki, 2009-cu ildən Naxçıvan şəhərində müasir Badamlı zavodu qurularaq istifadəyə verilib. Bu istehsal müəssisəsində müxtəlif həcmli plastik və şüşə butulkalarda olmaqla, 12 çeşiddə mineral su istehsal olunur. Burada Almaniya istehsalı olan müasir avadanlıqlarla təmin edilmiş xüsusi laboratoriya qurulub. Laboratoriyada suyun minerallıq dərəcəsi, qələviliyi yoxlanılır, ümumi analizləri aparılır, sonra keyfiyyətə zəmanət verilir. İstehsal prosesinin avtomatlaşdırıldığı müəssisədə standartlara uyğun, ekoloji cəhətdən təmiz, yüksəkkeyfiyyətli məhsul istehsalına nail olunub. Şahbuzda qurulan ikinci zavod isə istehsalın həcmini və çeşidini daha da artıracaq və muxtar respublikanın ixrac imkanlarını genişləndirəcək. Təsadüfi deyil ki, Naxçıvan bu gün ölkəmizin əsas mineral su ixracatçısı sayılır və "Badamlı" kimi "Sirab" mineral suyu da dünya bazarlarına çıxarılır.

Qeyd edək ki, ötən əsrin əvvəllərində aparılan tədqiqatlar nəticəsində aşkara çıxarılan bu sərvət 1947-ci ildən bəri istehsala cəlb edilərək süfrələri bəzəyir. Bu il "Badamlı" mineral suyunun istehsalından 70 il ötür. Yeni zavodun tikintisi bu mənada əlamətdar hadisədir.

**Naxcivantv.az**



*Son illər muxtar respublikamızda həyata keçirilən abadlıq-quruculuq tədbirləri qədimliyi saxlanılmaqla yeniləşən, müasirləşən Naxçıvan şəhərinin də simasını tanınmaz dərəcədə dəyişib, müasir memarlıq üslubu ilə gözoxşayan müxtəlif təyinatlı inzibati və sosial obyektlər, çoxmərtəbəli ictimai yaşayış binaları, park və xiyabanlar həyata vəsiqə alıb. Quruculuq ərməğanlarının yeni görkəm bəxş etdiyi ünvanlardan biri də görkəmli dövlət və elm xadimi Əziz Əliyevin adını daşıyan prospektdir.*

## Naxçıvan şəhərinin Əziz Əliyev prospektində yaradılan ecazkar mənzərəyə yeni çalarlar qatan ünvan –

## *“Danyeri” istehsal və xidmət sahəsi*





Burada tikilib istifadəyə verilən İlham Əliyev adına Olimpiya-İdman Kompleksi, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası, Naxçıvan Muxtar Respublika Xəstəxanası, Üzgüçülük Mərkəzi, Diaqnostika-Müalicə Mərkəzi, Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi, Vergilər Nazirliyi, Miqrasiya Xidməti, Naxçıvan Şəhər Məhkəməsi, Naxçıvan Şəhər Prokurorluğu, Naxçıvan Şəhər Vergilər İdarəsi, “Cahan” Ticarət Mərkəzi, “Gənclər şəhərciyi” son illərin quruculuq ərməğanları olmaqla, bu binalarda yerləşən ayrı-ayrı dövlət qurumlarının normal fəaliyyət göstərməsinə, əhalinin rahatlığına və onlara nümunəvi xidmət göstərilməsinə əlverişli şərait yaradıb. Prospektdə aparılan abadlıq-quruculuq tədbirləri cari ildə də davam etdirilir, bu ünvanda yaradılan ecazkar mənzərəyə yeni çalarlar qatılır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycanın görkəmli dövlət və elm xadimi Əziz Əliyevin 120 illik yubileyinin keçirilməsi haqqında” 2016-cı il 18 noyabr tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasında Tədbirlər Planı təsdiq olunub. Tədbirlər Planına əsasən Naxçıvan şəhərinin Əziz Əliyev prospektində yenidənqurma işləri aparılıb, yeni istirahət parkı salınıb və kafe fəaliyyətə başlayıb.

Prospektin avtomobil yolunun hərəkət hissəsi genişləndirilib, yola yeni asfalt örtük salınıb, ərazidə istirahət parkı yaradılaraq burada abadlıq və yaşıllaşdırma işləri görülüb. Parkda 2 fəvvarə tikilib, müasir işıqlandırma sistemi quraşdırılıb, oturacaqlar qoyulub, yeni kafe fəaliyyətə başlayıb. Kafedə 6 nəfər işlə təmin olunub. Onu da qeyd edək ki, kafedə nümunəvi xidmət üçün hər cür şərait yaradılıb. Burada da yerli məhsullardan istifadə olunur və müştərilərə keyfiyyətli xidmət göstərilir.

Muxtar respublikada əlverişli biznes və investisiya mühitinin yaradılması özəl bölmənin inkişafı üçün geniş imkanlar açıb. Hər il muxtar respublikada yeni istehsal və xidmət sahələri yaradılır, əhalinin məşğulluğu təmin olunur. Belə müəssisələrdən biri də adıçəkilən prospektdə fəaliyyətə başlayan “Danyeri” istehsal və xidmət sahəsidir.

Müəssisənin əməkdaşı Nəriman Tarverdiyev bizimlə söhbətində bildirdi ki, muxtar respublikada sahibkarlığın inkişafı sahəsində ardıcıl tədbirlər görülür. Qeyri-məşğul əhalinin işlə təminatı diqqət mərkəzində saxlanılır. Bunun nəticəsidir ki, hər il Naxçıvanda müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət sahələri yaradılır, minlərlə insan işlə təmin olunur. Bu il Novruz bayramı ərəfəsində istifadəyə verilən “Danyeri” istehsal və xidmət sahəsi də sahibkarlığın inkişafına göstərilən qayğının daha bir ifadəsidir.

Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan binada gündəlik istehsal gücü 500 kiloqram olan dondurma, istehsal gücü saatda 800 çörək olan milli çörək və istehsal gücü saatda 80 kiloqram olan unlu-qənnadı sahələri, 40 və 96 yerlik iki kafe, 114 yerlik restoran, uşaqlar üçün zal, ixtisaslaşmış mağaza, mebel salonu, 2 ədəd soyuducu kamera, xammal və hazır məhsul anbarları, iş və xidməti otaqlar vardır. Binada lift quraşdırılıb, təhlükəsizlik tədbirləri görülüb. İstehsal və xidmət sahəsinin fəaliyyətə başlaması əhaliyə nümunəvi xidmət göstərilməsi ilə yanaşı, daxili bazarın yüksəkkeyfiyyətli yerli məhsullarla və əhalinin məşğulluğunun təmin edilməsinə geniş imkanlar açıb, 62 nəfər özünə daimi iş yeri tapıb.

İstehsal sahələrində bazarın tələbatına uyğun keyfiyyətli və rəqabətədavamlı məhsul istehsal olunur, təmizliyə və gigiyenik qaydalara tam əməl edilir. Məhsullar “Danyeri” əmtəə nişanı ilə muxtar respublikadakı ticarət mərkəzlərində satışa çıxarılır. Mağazada ərzaq məhsullarının və gündəlik tələbat mallarının satışı həyata keçirilir. Burada muxtar respublikada istehsal olunan məhsullarla yanaşı, xarici ölkələrdə istehsal edilən və mənşə sertifikatı olan məhsullar da satışa çıxarılır. Xidmət sahələrində insanların rahatlığı tam nəzərə alınıb. Mebel salonunda isə muxtar respublikada və başqa ölkələrdə istehsal edilən müxtəlif növ keyfiyyətli mebel dəstləri alıcılara təklif olunur.

İstehsal və xidmət sahəsinin kollektivi üzərinə düşən vəzifələri məsuliyyətlə yerinə yetirməyə, yaradılan şəraitdən səmərəli istifadə etməyə, tikilənləri, qurulanları qoruyub saxlamağa çalışır.

“Danyeri” yeni istehsal və xidmət sahəsinin yaradılması, parkın istifadəyə verilməsi sakinlərlə yanaşı, turistlərin də istirahətinin mənalı təşkilinə imkan verir. Burada yaradılan şəraitdən bəhrələnən müştərilərin və bu ünvanda yaşayan sakinlərin qurulub-yaradılanlara münasibəti də birmənalı oldu. Onlar bildirdilər ki, bir vaxtlar gözdənuzaq, könüldəniraq düşən, gecələr zülmətə qərq olan, çala-çökək yollarda hərəkət edilməsi mümkün olmayan, yöndəmsiz tikililəri ilə şəhərimizin görkəminə xələl gətirən bu ünvan indi abadlaşıb, çilçırağa qərq olub, şəhərimizin ən gözəl məkanlarından birinə çevrilib. Yenicə istifadəyə verilən park əhalinin istirahətinə əlverişli şərait yaradıb. Fəaliyyətə başlayan alış-veriş mərkəzində isə həm yerli məhsul istehsal olunur, həm də əhaliyə iaşə və ticarət xidməti göstərilir. Sakinlərdən Fəxrəddin Yaqubov da qeyd olunanlarla razılaşdığını bildirərək dedi: “Daha o dükan sənin, bu dükan mənim deyib dolanmağa ehtiyac yoxdur. Elə bu ünvanda istədiyin mebeli seçə, gündəlik tələbat mallarını münasib qiymətə ala bilərsən. Deyərdim ki, burada topdansatış qiymətinə pərakəndə satış həyata keçirilir. Bundan yaxşı nə ola bilər?”

O, yaradılan şəraitə, göstərilən dövlət qayğısına görə minnətdarlığını bildirdi, prospektdən keçən avtomobil yolunun digər tərəfində çalışan inşaatçıları göstərərək dedi: “Bax o tərəfdə yol kənarında piyadaların hərəkəti üçün səki ensiz olduğundan piyadalar bəzən avtomobil yolu ilə hərəkət etmək məcburiyyətində qalırdılar. Bu da, təbii ki, təhlükəli idi. Dövlət külli miqdarda vəsait sərf etməklə yol kənarına yeni hasar çəkir, piyadaların təhlükəsizliyi üçün səkilər salır. Bunları deməkdə məqsədim ondan ibarətdir ki, dövlət sakinlərin, ölkəmizə gələn turistlərin rahatlığı üçün hər cür şərait yaradır. Qalır ki, biz sakinlər ümumi evimiz olan Naxçıvan şəhərində qurulub-yaradılanları qoruyub saxlayaq, səmərəli istifadə edək”.

*Bəli, Naxçıvan şəhərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlərin mərkəzində insan amili dayanır. Əhalinin rahatlığına xidmət edən müasir infrastrukturun yaradılması da məhz bu məqsədə xidmət edir. Muxtar respublikanın paytaxtında yol-nəqliyyat infrastrukturunun müasir tələblər səviyyəsində qurulması istiqamətində görülən ardıcıl tədbirlər, şəhərin küçə və məhəllələrinin abadlaşdırılması da Naxçıvan şəhərinin simasının dəyişməsinə, insanların rahatlığının təmin olunmasına səbəb olub.*

**✍ Nail ƏSGƏROV**

## Avtomobillərin sığortası dəymiş zərərlərə maddi zəmanət verir

***Yaşadığımız müasir dövrdə avtomobil nəqliyyatı insan həyatına sürət və komfort gətirib. Ancaq avtomobil nəqliyyatı həm də yüksək riskə malikdir. Çünki baş verən yol-nəqliyyat qəza halları zamanı yaranan maddi zərərlər çox ciddi problemlərə səbəb olur. Buna görə də avtonəqliyyat vasitələrinin icbari sığortası ilə verilən sığorta təminatı hər bir avtonəqliyyat vasitəsi sahibi üçün əhəmiyyətlidir.***



Şübhəsiz, hər kəs istəyir ki, yola çıxdığı zaman heç bir arzuedilməyən təsadüfi hadisə ilə rastlaşmasın. Ancaq müasir dövrdə avtomobillərin sayının artması qəza və digər arzuedilməz halların da başvermə ehtimalını artırır, bəzən insanları çıxılmaz vəziyyətə salır. Bu baxımdan avtomobil nəqliyyatı vasitələrindən istifadə zamanı onların sahiblərinin mülki məsuliyyətinin sığortası mühüm əhəmiyyət kəsb edir. Çünki avtomobil sahibləri mülki məsuliyyətlərini sığorta etdirməklə qaçılması mümkün olmayan bədbəxt hadisələrin maddi zərərlərinin əvəz olunmasına nail olurlar. Belə maddi zərərlər isə həm avtomobil sahiblərinə, həm də digər – üçüncü şəxslərə dəyə bilər. Ölkəmizdə mövcud olan qanuna əsasən, belə bədbəxt hadisələr zamanı üçüncü şəxslərə dəyə biləcək zərərləri ödəmək üçün avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası həyata keçirilir.

Avtomobil nəqliyyatı vasitələrinin istismarı ilə bağlı yarana bilən müxtəlif qəzalı vəziyyətlər zamanı avtomobil sahiblərinin daşıdığı mülki məsuliyyət yaranan arzuedilməz qəza hallarında qarşı tərəfə vurulmuş zərərin ödənilməsi ilə əlaqələnir. Bu məsuliyyətin ötürülməsi, yəni dəymiş zərərin əvəzinin ödənilməsinin şəxsin özünün deyil, sığortaçı tərəfindən ödənilməsi isə bu sığorta növünün əsas məqsədidir. Belə ki, avtomobillərdən istifadə zamanı risk dərəcəsi yüksək olan hadisələr baş verdikdə həm avtomobilin özünə, həm də onun iştirakçısı olduğu hadisənin digər tərəfinə – üçüncü şəxslərin həyatına, onun sağlamlığına, mal və əmlakına zərərlər dəyə bilər. Bu zaman avtomobil sahibləri vura biləcəyi zərərlə əlaqədar çıxılmaz vəziyyətə düşə bilər. Bu, avtomobil sahibini gözləyən ən mühüm riskli haldır. Məhz bu riskin səviyyəsini nəzərə alaraq avtomobil sahibi olan hər bir şəxsin mülki məsuliyyətinin sığortası icbari qaydada tətbiq olunur. Çünki bu zaman dəyə biləcək zərərin hansı məbləğdə ola biləcəyini əvvəlcədən demək çətindir. Məsələn, bəzən dəymiş zərər avtomobil sahibinin maddi imkanlarından dəfələrlə çox ola bilər. Sığorta müqaviləsi olduqda mülki məsuliyyətini sığortalamış vətəndaşın qarşı tərəfə vurduğu zərəri onun özü deyil, risklərini həvalə etmiş sığortaçı ödəyir.

Avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin sığortasının aparılması 2011-ci il 24 iyun tarixli “İcbari Sığortalar haqqında” Azərbaycan Respublikası Qanununa əsasən aparılır. Bu qanuna əsasən, mühərrikinin həcmi 50 kubsantimetrdən artıq olan avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası icbaridir. Müəyyənləşdirilmiş normalara əsasən, icbari sığortahaqqı bundan sonra baza məbləğinə əmsallar tətbiq olunmaqla aparılır. Hazırkı sığortahaqqının baza məbləği 50 manat müəyyən edilib ki, bu da mühərrikinin həcmi 50-dən 1500 kubsantimetrədək olan minik avtomobillərində tətbiq olunur. Mühərrikinin həcmi 1500 kubsantimetrdən yuxarı olan minik avtomobillərinin sığortahaqqı əmsallar tətbiq olunmaqla hesablanır. Məsələn, mühərrikinin həcmi 1500-2000 kubsantimetr olan minik avtomobilləri üçün 1,5 əmsal tətbiq olunaraq sığortahaqqı 75 manat müəyyənləşdirilir. Mühərrikinin həcmi 2000-2500 kubsantimetrədək olan minik avtomobilləri üçün 2 əmsal tətbiq olunmaqla 100 manat sığortahaqqı müəyyən edilir. Mühərrikin həcmi artdıqca tətbiq olunan əmsalla sığortahaqqının məbləği də yüksəlir.

Yük avtomobilləri və onların bazasında istehsal olunmuş digər avtomobil nəqliyyat vasitələri üçün icazə verilən maksimum kütləsinə görə, 3500 kiloqram olduqda 3 əmsalı tətbiq olunmaqla 150 manat, 3500 kiloqramdan 7000 kiloqramadək olduqda 4 əmsal tətbiq olunmaqla 200 manat, 7000 kiloqramdan artıq kütləyə görə isə 5 əmsal tətbiq olunmaqla 250 manat sığortahaqqı hesablanır. Hüquqi şəxslərə məxsus avtonəqliyyat vasitələri üçün minik və yük nəqliyyat vasitəsi olmasından asılı olmayaraq, 1,2 əmsal əlavə olunur.

Sığorta haqlarının ödənilməsi formasına gəldikdə, burada son dövrlərdə tətbiq olunan mütərəqqi üsullar sürücülər üçün rahat şərait yaradıb. Belə ki, avtonəqliyyat vasitələri sahiblərinin sığorta müqaviləsinin bağlanılması elektron formada həyata keçirilir. Ümumi sistemə daxil olunmuş sığorta müqaviləsi sığortahaqqı ödəndikdən sonra avtomatik olaraq qüvvəyə minir.

Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası müqavilə müddətində sığorta hadisəsi baş verdikdə mövcud qanuna əsasən üçüncü şəxs olan fiziki şəxslərin həyat və sağlamlığına dəyən zərərə görə bir şəxs üçün 5 min manat, ümumilikdə isə 50 min manatdan çox olmamaq şərtilə, əmlakına dəyən zərərə görə isə 5 min manat məbləğində sığorta olunur.

Göründüyü kimi, avtonəqliyyat vasitələri sahiblərinin icbari sığortası müasir həyatımızın mühüm bir tələbatıdır. Bu tələbatın ödənilməsi üçün hər bir sürücünün vaxtında sığorta müqaviləsi bağlaması və öz hüquqlarından istifadə etməsi zəruridir.

**✍ Əli CABBAROV**


Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikası

7 aprel Ümumdünya Sağlamlıq Günüdür

# İnsan sağlamlığı cəmiyyətin ən qiymətli sərvətidir

***1948-ci il aprelin 7-də Ümumdünya Səhiyyə Təşkilatı fəaliyyətə başlamışdır. Həmin tarixdən aprelin 7-si Ümumdünya Sağlamlıq Günü kimi qeyd olunur.***

Azərbaycanda səhiyyənin inkişafı ötən əsrin 70-ci illərindən başlayır. Həmin dövrdən etibarən ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar səhiyyə sahəsinin əsaslı inkişafına səbəb olmuş, ölkəmizin bütün bölgələrində müasir xəstəxana binaları tikilərək istifadəyə verilmişdir. Müstəqillik illərində də ulu öndərin rəhbərliyi ilə səhiyyə sahəsində kompleks tədbirlər həyata keçirilmiş, bu sahənin qanunvericilik bazası təkmilləşdirilmiş, müasir səhiyyə infrastrukturu yaradılmışdır. Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi illər Naxçıvan səhiyyəsi üçün inkişaf dövrü kimi səciyyələnir. 1969-1999-cu illərdə muxtar respublikada 1156 yerlik xəstəxanalar, eləcə də poliklinika və ambulatoriyalar tikilmişdir.

Səhiyyəni cəmiyyət və dövlət həyatında mühüm sahə kimi qiymətləndirən ulu öndərimiz Heydər Əliyev deyirdi: ***“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir. Onun inkişafı üçün zəruri tədbirlər görülüb və gələcəkdə də görüləcəkdir”.*** Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məsələləri bu gün dövlətin üzərinə götürdüyü sosial öhdəliklər sırasında mühüm yer tutur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin müəyyənləşdirdiyi siyasi kursu bütün istiqamətlərdə, eləcə də səhiyyə sahəsində layiqincə davam etdirir. Səhiyyənin prioritet sahələri üzrə qəbul olunmuş dövlət proqramlarının həyata keçirilməsi, əhalinin kütləvi tibbi dispanserizasiyası vətəndaşlara göstərilən tibbi xidmətin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin və keyfiyyətinin artmasına imkan vermişdir.


Naxçıvan Muxtar Respublika Xəstəxanası

Ölkəmizdə sosial-iqtisadi sahələrin bütün istiqamətləri üzrə müşahidə olunan uğurlu inkişaf muxtar respublika səhiyyəsini də əhatə edir. Son illərin möhtəşəm quruculuq ünvanlarından olan Naxçıvan Muxtar Respublika Xəstəxanası, Naxçıvan Diaqnostika-Müalicə və Doğum mərkəzləri, Duzdağ Fizioterapiya, Onkoloji, Yoluxucu Xəstəliklər, Gigiyena və Epidemiologiya mərkəzləri, Naxçıvan Şəhər Təcili Tibb, Naxçıvan Uşaq Bərpa mərkəzləri, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası, Ağciyər, Psixi Xəstəliklər dispanserləri, Darıdağ Arsenli Su Müalicəxanası, rayon mərkəzi xəstəxanaları müasir səhiyyə müəssisələrindəndir.





Muxtar respublika əhalisinin sağlamlığının qorunmasına göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, son illər ərzində 220-dən çox səhiyyə müəssisəsi müasir standartlara uyğun tikilərək və yeni tibbi avadanlıqlarla təchiz olunaraq istifadəyə verilmişdir ki, onlardan da 13-ü ötən ilin payına düşür. Tibb ocaqlarında lazımi şəraitin yaradılması, müasir müayinə və müalicə aparatları ilə təchizat hər bir vətəndaşa öz sağlamlığını qorumağa imkan verir. Bütövlükdə, tibb müəssisələrinin stasionar və ambulatoriya bölmələri xidmətin əhatə dairəsini xeyli genişləndirmişdir. Bu gün səhiyyə müəssisələrindəki kompüter tomoqraf, nüvə maqnit rezonans, mammoqrafiya, qastroskopiya, kolonoskopiya aparatları müayinə və müalicənin düzgün və səmərəli təşkilinə imkan verir.


Naxçıvan Diaqnostika-Müalicə Mərkəzi

Naxçıvanda səhiyyə sahəsində görülən işlər ancaq quruculuq tədbirləri ilə yekunlaşmır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2003-cü il 27 may tarixli Sərəncamı ilə muxtar respublikanın dövlət səhiyyə müəssisələrində bütün növ pullu xidmətlər ləğv edilmişdir. Yaradılan şərait muxtar respublikada insanların kütləvi tibbi müayinədən keçirilməsi tədbirlərinin də uğurlu icrasını təmin etmişdir. Ölkə Prezidenti cənab İlham Əliyevin tapşırığına uyğun olaraq hər il fevralın 15-dən mayın 15-dək həyata keçirilən əhalinin kütləvi tibbi dispanserizasiyası muxtar respublikada uğurla davam etdirilir. Bu humanitar aksiya, əhalinin tibbi müayinəyə cəlb edilməsi xəstəliklərin erkən aşkar olunmasına və vaxtında müalicəsinə, əhalinin sağlamlığının, xalqımızın genofondunun qorunmasına yönəlib.





Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 10 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın icrası da diqqət mərkəzində saxlanılır, kiçikyaşlı uşaqlar arasında tuberkulin sınağı və poliomielit xəstəliyinin profilaktikası, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafiya müayinəsi və məktəbyaşlı uşaqların kütləvi oftalmoloji, stomatoloji, ortopedik, endokrinoloji müayinələri də uğurla davam etdirilir.

Dispanserizasiya işini daha da yaxşılaşdırmaq məqsədilə yerlərdə davamlı olaraq əhalinin müayinə-müalicə işi, səhiyyə, təhsil və mədəniyyət müəssisələrində mammoqrafiya müayinələri aparılır. Ali Məclis Sədrinin tapşırıqlarına uyğun olaraq hepatit B və C virus infeksiyalarının qarşısının alınması tədbirləri genişləndirilmişdir. Hazırda əməliyyat və doğuş həyata keçirilən bütün tibb müəssisələrində xəstələrdə hepatit B və C viruslarının ekspress metodla müayinəsi aparılır, nəticəsi müsbət olan xəstələr əlavə olaraq Yoluxucu Xəstəliklər Mərkəzində müayinələrə cəlb olunur. Həmçinin nikaha daxil olan vətəndaşlarda İİV, QİÇS və sifilis xəstəlikləri ilə bərabər, hepatit B, C viruslarının yoxlanılması da həyata keçirilir.

Bakı şəhərindən muxtar respublikaya dəvət olunan yüksəkixtisaslı həkim briqadalarının yerli həkimlərlə birgə əməliyyatlar aparması da artıq ənənə halını almışdır. Sosial layihələr çərçivəsində təkcə ötən il Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının Ürək və damar xəstəlikləri şöbəsinin həkim briqadası və Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin Kardiocərrahiyyə şöbəsi tərəfindən 430 xəstədə müayinə, 112 xəstədə açıq ürək əməliyyatı aparılmışdır. Azərbaycan Respublikası Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının ayrı-ayrı ixtisaslar üzrə həkim briqadası Şərur və Ordubad rayonlarında 7 min 391 sakini tibbi müayinədən keçirmiş, 189 xəstədə cərrahi əməliyyat aparmışdır.

Bu gün Naxçıvanda ən mürəkkəb cərrahi əməliyyatların aparılması əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısını almışdır. Bundan başqa, əhali arasında səhiyyə maarifi işinin təşkilinə də diqqət artırılmışdır. Mərkəzi xəstəxanalar tərəfindən təşkil olunan həkim briqadaları müvafiq qrafik əsasında kəndlərdə olur, əhaliyə nümunəvi xidmət göstərirlər. Ahıl və əlillər də daimi tibbi müayinələrdən keçirilir, onlar Bakı şəhərinin Şağan qəsəbəsindəki Əlillərin Müalicə Pansionatına, Mərdəkan qəsəbəsindəki Müharibə və Əmək Veteranları Pansionatına və digər xəstəxanalara müalicəyə göndərilirlər.

Görülən işlərin nəticəsidir ki, son illər Ümumdünya Səhiyyə Təşkilatının müntəzəm monitorinqdə saxladığı əsas yoluxucu xəstəliklərə, o cümlədən salmonellyoz, bakterial dizenteriya, difteriya, epidemik parotit pedikulyoz, malyariya, leyşmanioz, poliomielit və tetanus kimi xəstəliklərə muxtar respublika ərazisində təsadüf olunmamışdır. Həyata keçirilən sosial-iqtisadi islahatlar, əhalinin yaşayış səviyyəsinin davamlı yüksəlişi, müalicə-profilaktika işinin nümunəvi təşkili, tibbi xidmətin keyfiyyətinin və əhatəliliyinin artması demoqrafik vəziyyətə öz müsbət təsirini göstərmişdir.


Şərur Rayon Mərkəzi Xəstəxanası

Profilaktik tədbirlərin səmərəli nəticələr verdiyini bildirən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: ***“Bu gün muxtar respublikada insanların sağlamlığının qorunması, onların müalicə və müayinəsinin yüksək səviyyədə təşkili istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Səhiyyə sisteminin maddi-texniki bazasının müntəzəm olaraq möhkəmləndirilməsi, yüksək səhiyyə xidmətinin təşkili öz bəhrəsini verir. Artıq muxtar respublikada ciddi problem yaradan xəstəliklər yoxdur, insanların sağlamlığı daim diqqət mərkəzində saxlanılır”.***

Muxtar respublikada səhiyyə turizmi də diqqətdə saxlanılan məsələlərdəndir. Son illər Duzdağ Fizioterapiya Mərkəzi və Darıdağ Arsenli Su Müalicəxanası yenidən qurularaq istifadəyə verilmişdir. Hər iki səhiyyə müəssisəsi hər il yüzlərlə xarici turistin müraciət etdiyi müalicə ocağına çevrilmişdir.

Səhiyyə sahəsində kadr təminatına ən vacib məsələ kimi böyük əhəmiyyət verilir. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində və Naxçıvan Tibb Kollecində ixtisaslı həkim və orta tibb işçilərinin hazırlanması muxtar respublikanın səhiyyə ocaqlarının kadr təminatının ödənilməsinə imkan verir. İxtisaslı tibbi kadrların yetişdirilməsi ilə yanaşı, onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılır. Təkcə ötən il bu məqsədlə 50 tibb işçisi və Tibb Kollecinin 36 tələbə və müəllim heyəti Türkiyə Respublikasında, 5 həkim İran İslam Respublikasında, 10 həkim Bakı şəhərində yerləşən Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda və 16 həkim Bakı şəhər tibb müəssisələrində iş yerində müxtəlif müddətlərdə təkmilləşmə kursu keçməsi üçün göndərilmişdir. Muxtar respublika tibb müəssisələrində çalışan 42 orta tibb işçisi isə Naxçıvan şəhər tibb müəssisələrində iş yerində təcrübə mübadiləsinə cəlb olunmuşdur. Ötən il muxtar respublikada səhiyyə sahəsində 17 konfrans, 112 seminar keçirilmişdir. İl ərzində keçirilən sertifikasiya imtahanında 595 orta tibb işçisi iştirak etmiş, onlardan 442-si uğurlu nəticə qazanmışdır.

“Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq səhiyyə sistemində elektron xidmətlərin göstərilməsi davam etdirilmiş, nazirliyin rəsmi internet saytı “Elektron hökumət” portalına qoşulmuş və yenilənmişdir. Saytda elektron müraciətlər bölməsinin fəaliyyəti ilə yanaşı, imtahan test sualları, obliqat qruplarının müayinəsi, uşaq sağlamlıq kartları haqqında məlumatlar verilir və statistik göstəricilər mütəmadi olaraq yenilənir.

Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı islahatlar aparılır, səhiyyə sistemi sürətlə inkişaf edir və müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Bu gün muxtar respublikada əhaliyə 229 tibb müəssisəsi tərəfindən tibbi xidmət göstərilir. Həmin tibb müəssisələrində 713 həkim, 2107 orta tibb işçisi çalışır. Həkimlərdən 101-i Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikasının Əməkdar həkimi adına layiq görülmüşdür.

*Muxtar respublikanın tibb işçiləri bundan sonra da insanların sağlamlığının etibarlı təminatçısı olacaq, yaradılan şəraitdən istifadə edərək səhiyyənin inkişafına öz töhfələrini verəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## “Naxçıvan” Universitetinin əməkdaşları təlimdə iştirak ediblər

***“Naxçıvan” Universitetinin bir qrup əməkdaşı AESOP layihəsinin Xəzər Universitetində keçirilən iclasında iştirak ediblər.***

Bu günlərdə isə Gürcüstanın Akaki Tsereteli Dövlət Universitetinin koordinatorluğu ilə həyata keçirilən AESOP layihəsinin növbəti təlimi Polşada, Varşava Universitetində keçirilib. Təlimdə partnyor universitet kimi “Naxçıvan” Universitetini ali təhsil ocağının Tədris şöbəsinin müdiri Anar Abuzərli, layihə koordinatoru Elmira Hüseynova, Xarici dillər fakültəsinin dekan müavini Yasin Babazadə və həmin fakültənin müəllimi Könül Babayeva təmsil ediblər.

Azərbaycan, Ukrayna və Gürcüstan nümayəndələrinin də iştirak etdikləri təlimin keçirilməsində məqsəd ombudsman aparatlarının funksiya və strukturunun nəzəri və praktik cəhətdən öyrənilməsindən ibarət olub.

Təlim çərçivəsində keçirilən iclasda giriş sözü ilə çıxış edən Varşava Universitetinin Tələbə işləri üzrə prorektoru Yolanta Çoinska-Mika təlimin mahiyyəti barədə ətraflı məlumat verib.

Sonra partnyor universitetlərin təqdimatı keçirilib. “Naxçıvan” Universiteti haqqında geniş məlumatı və videoçarxı universitetin layihə üzrə koordinatoru Elmira Hüseynova təqdim edib.

Qeyd edək ki, əvvəlcədən müəyyənləşdirilmiş proqrama uyğun olaraq Varşava Universitetinin Ombudsman aparatının rəhbəri Anna Sibulka bu təşkilat haqqında tədbir iştirakçılarına ətraflı məlumat verib.

**Nuray ƏSGƏROVA**

## Elan

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu yeniyetmə, gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər arasında “Ailə dəyərlərimiz film və fotolarda” II yaradıcılıq müsabiqəsi elan edir. Müsabiqədə Naxçıvan Muxtar Respublikasında yaşayan telejurnalist və rejissorlar, ali, orta ixtisas və ümumtəhsil müəssisələrinin tələbə və şagirdləri, həvəskar və professional fotoqraflar iştirak edə bilərlər. Müsabiqə “Ən yaxşı film” və “Ən yaxşı foto” istiqamətləri üzrə keçirilir.

Müsabiqənin keçirilməsində məqsəd gənc ailələrdə ailə dəyərlərinin qorunub saxlanılmasını təbliğ etmək, ailə dəyərlərimizi film və fotolara köçürməklə yaşatmaq, film və fotolar vasitəsilə ailə dəyərlərimizə bağlı olan ailələrin adət-ənənələrini ictimaiyyətə, yeniyetmə və gənclərə təqdim etmək, ailə səadətinin açarı kimi ailə dəyərlərini işıqlandırmaq, yeniyetmə və gənclərdə yaradıcılıq qabiliyyətini aşkara çıxarmaq və bədii zövqünü inkişaf etdirməkdir.

Yaradıcılıq qabiliyyəti olan hər bir yeniyetmə, gənc və digər yaş qruplarından olan yaradıcı və həvəskar şəxslər müsabiqədə iştirak edə bilərlər.

Müsabiqəyə təqdim olunmuş materialların qiymətləndirmə meyarları aşağıdakılardır:

-müsabiqənin məqsədinə uyğunluğu və şərtlərinə cavab verməsi;

-ideyanın, kompozisiyanın orijinallığı və yaradıcı yanaşma;

-işin təsiredici qüvvəyə malik olması və asan qavranılması;

-keyfiyyəti.

Müsabiqəyə təqdim olunan materiallar aşağıdakı tələblərə cavab verməlidir:

-film (5 dəqiqədən artıq olmaq şərti ilə) CD formatda (1 ədəd diskdə);

-foto (5 ədəddən artıq olmamaq şərti ilə) CD formatda (1 ədəd diskdə), 20x30 sm və daha böyük ölçülü rəngli və ya ağ-qara kağız formatda.

Müsabiqəyə təqdim edilən işlərin mövzuları bunlardan ibarətdir:

-xalqımızın ailə dəyərləri, adət-ənənələri;

-ənənəvi ailə münasibətləri və ailə mədəniyyətinin təbliği;

-ailənin bütövlüyünü təşkil edən amillər və ailənin uzunömürlü olmasının sirləri;

-nümunəvi ailələrin təbliği, yeniyetmə və gənclərin yaşlı nəslə ehtiram və hörməti;

-ailə quran tərəflərin onun bütövlüyü üçün əzmkarlığı;

-qohum və erkən nikahların, zərərli vərdişlərin yaratdığı fəsadlar;

-övladını tək böyüdən nümunəvi valideynin fədakarlığı;

-qonaqpərvərlik ənənələrimizin təbliği və sair.

Müsabiqədə iştirak etmək istəyən şəxslər hazırladıqları film və ya fotoları, müvafiq anketi şəxsiyyət vəsiqələrinin surəti ilə birlikdə 2017-ci il iyun ayının 30-dək Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə təqdim etməlidirlər.

Müsabiqənin mükafat fondu aşağıdakı kimidir:

*Birinci yer (1 nəfər) – Diplom və pul mükafatı (300 AZN)*

*İkinci yer (1 nəfər) – Diplom və pul mükafatı (200 AZN)*

*Üçüncü yer (1 nəfər) – Diplom və pul mükafatı (100 AZN)*

*Həvəsləndirici yer (3 nəfər) – Diplom və qiymətli hədiyyə.*

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev 42, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi***

**Əlaqələndirici şəxs:**
**Sahir Rüstəmov**
**Telefon: 545-39-75**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 aprel 2017-ci ildə saat $10^{00}$-da hərraca çıxarılacaq dövlət nəfinə müsadirə edilmiş əmlaklar haqqında məlumat

| Sıra №-si | Müsadirə edilən əmlakın adı | Ölçü vahidi | Miqdarı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın 10% güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin miqdarı (manat) |
|---|---|---|---|---|---|---|
| 1. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2018.25 | 1816.42 | 201.83 |
| 2. | Dördkünc qızıl sikkə | ədəd | 1 | 6500 | 5850.00 | 650.0 |
| 3. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 2015 | 1813.50 | 201.5 |
| 4. | Müxtəlif təsvirli dairəvi qızıl sikkə | ədəd | 1 | 4032.60 | 3629.34 | 403.26 |
| 5. | Dairəvi qızıl sikkə | ədəd | 1 | 2017.60 | 1815.84 | 201.76 |
| 6. | Naxışlı qızıl sikkə | ədəd | 1 | 700.98 | 630.80 | 70.10 |
| 7. | “MAURİCE LACROIX” qol saatı | ədəd | 1 | 1700 | 1530.00 | 170.00 |
| 8. | “MAURİCE LACROIX” qol saatı | ədəd | 1 | 1400 | 1260.00 | 140.00 |
| 9. | “TİSSOT 1853” markalı qol saatı | ədəd | 1 | 1500 | 1350.00 | 150.00 |
| 10. | “TİSSOT 1853 AUTOMATİK” markalı qol saatı | ədəd | 1 | 1800 | 1620.00 | 180.00 |
| 11. | “LONGİNES” markalı 12 qaşlı qol saatı | ədəd | 1 | 1700 | 1530.00 | 170.00 |
| 12. | “Louis Erard AUTOMATİK” markalı qol saatı | ədəd | 1 | 1300 | 1170.00 | 130.00 |
| 13. | “VERTU HANDMADE” markalı mobil telefon | ədəd | 1 | 8500 | 7650.00 | 850.00 |

Məlumat dərc olunduğu gündən hərracda iştirak etmək istəyən hüquqi və fiziki şəxslər satışa çıxarılan əmlaklara sifariş vermək üçün Auksion Mərkəzinə müraciət edə bilərlər. Hərraclarda alıcı hesab edilən sifarişi və digər zəruri sənədləri təqdim etmiş, satılan əmlakın ilkin satış qiymətinin 10 faizi həcmində behi Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin AZ21NABZ12360100000000005944 nömrəli hesabına ödəmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Sifarişlər və aşağıdakı sənədlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk prospekti 42) 14 aprel 2017-ci il tarixdə hərrac keçirilməsinə ən azı 3 bank günü qalanadək qəbul olunacaqdır:

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti;*

*- Maliyyə Nazirliyinin hesabına ödənilmiş 10 faiz behin hesaba keçirilməsini təsdiq edən sənədlərin surəti.*

Hərrac 17 aprel 2017-ci il tarixdə, saat $10^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

*Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanasında ali təhsil müəssisəsinin dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynovun “Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər)” kitabının təqdimat mərasimi keçirilib.*

## Kənd təsərrüfatının inkişaf tarixini öyrənən yeni tədqiqat əsərinin təqdimatı olub



Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov tədbirdəki çıxışında vurğulayıb ki, universitet Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyində işıq üzü görən monoqrafiya muxtar respublikada həyata keçirilən aqrar islahatlardan, xalq təsərrüfatının, yerli iqtisadiyyatın inkişafına xidmət edən dövlət siyasətinin uğurlarından bəhs edir. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə kənd təsərrüfatı sahəsində genişmiqyaslı islahatların aparılması, müstəqillik illərində muxtar respublikada kənd təsərrüfatı sahəsində mühüm nailiyyətlər əldə edilməsi monoqrafiyada öz əksini tapıb.

Təqdimat mərasimində universitetin Ümumi tarix kafedrasının dosenti İsmayıl Zeynalov çıxış edərək bildirib ki, dörd fəsildən ibarət monoqrafiyada müxtəlif tarixi mərhələlərdə muxtar respublikada kənd təsərrüfatının heyvandarlıq, quşçuluq kimi sahələrinin, habelə taxılçılığın, pambıqçılığın, tütünçülüyün, üzümçülüyün, meyvəçiliyin inkişafı, əkinəyararlı sahələrin genişləndirilməsi və məhsuldarlığının ildən-ilə artırılması, maddi-texniki bazanın gücləndirilməsi statistik göstəricilər əsasında araşdırılıb. Yeni tədqiqat əsəri muxtar respublikanın kənd təsərrüfatı tarixinin öyrənilməsi baxımından mühüm elmi dəyər kəsb edir.

Azərbaycan tarixi kafedrasının dosenti Sevinc Abbasova monoqrafiyanın “Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı (1991-2014-cü illər)” adlanan dördüncü fəsli barədə danışıb. Qeyd edib ki, bu fəsildə müstəqilliyin ilk illərindən etibarən regionda ictimai-siyasi sabitlik şəraitində kənd təsərrüfatının müxtəlif sahələrindəki dirçəliş elmi əsaslarla, real faktlarla tədqiq olunub.

Təqdimat mərasiminin sonunda müəllif çıxış edərək tədbirin təşkilatçılarına, monoqrafiyanın ərsəyə gəlməsində xüsusi əməyi olanlara minnətdarlığını bildirib.

**Mehriban SULTAN**

## Ekstremal idman yürüşü üzrə rayon birinciliyinin qalibləri məlum olub

***Şahbuz Rayon Gənclər və İdman İdarəsi, Təhsil Şöbəsi və Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə rayonun ümumtəhsil məktəblərinin şagirdləri arasında “Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq” devizi altında Şahbuz Rayon Bayraq Meydanından “Böyrək suyu” bulağı istiqamətində keçirilən ekstremal idman yürüşü üzrə birinciliyə yekun vurulub.***

Yarışdan əvvəl Şahbuz Rayon Gənclər və İdman İdarəsinin rəis əvəzi İdris Qəhrəmanov, Naxçıvan Muxtar Respublikası Hava və Ekstremal İdman Növləri Federasiyasının sədr müavini Azər Məmmədov, Təhsil Şöbəsinin əməkdaşı Fikrət Cəfərov çıxış edərək idmanın inkişafına göstərilən qayğıdan, ekstremal idman növlərinin yaranmasının və inkişafının əhəmiyyətindən bəhs edərək idmançılara uğurlar arzulayıblar.

Sonra yarışa start verilib. Yarışda 12 məktəbdən 100 idmançı (35 qız, 65 oğlan) mübarizə aparıb. Oğlanlar 5, qızlar isə 4 kilometr məsafəyə idman yürüşündə qüvvələrini sınayıblar.

Oğlanlar arasında qalib adını Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Murad Bağırov qazanıb. Məktəbin digər şagirdi Samir Məmmədov ikinci, Nursu kənd tam orta məktəbinin şagirdi Uğur Novruzov isə üçüncü olub.

Qızların mübarizəsində isə Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Xəzəngül Quliyeva fərqlənərək birinci yerə layiq görülüb. Digər iki pillədə isə Daylaqlı kənd tam orta məktəbinin şagirdi Songül Novruzlu və Ayrınc kənd tam orta məktəbinin şagirdi Melisa Mustafayeva qərarlaşıblar.

Qaliblərə təşkilatçılar tərəfindən diplom və hədiyyələr təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, bina 31, mənzil 22-də yaşayan Bağırov Bağır İsmayıl oğlunun adına olan 07/741 nömrəli qeydiyyat vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Kəngərli rayonunun Xok kənd sakini Məmmədov Şahin Ağoş oğlunun adına olan evin 04 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: RAUF KƏNGƏRLİ
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 282